AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

Kapital Bank
BİRİNCİ BANK

# Respublika Fənn Olimpiadaları

Rayon (Şəhər) mərhələsi

# Azərbaycan dili və ədəbiyyat

Ad ______________________

Soyad ______________________

Məktəb ______________________

1. İmtahan müddəti 90 dəqiqədir.
2. 4 səhv cavab 1 düz cavabı aparır.
3. Hər sual 4 bal ilə qiymətləndirilir.
4. Nəzarətçilərə yalnız cavab kartları təqdim olunur.
5. Rayon (Şəhər) mərhələsinin nəticələrini www.olimpiada.edu.az saytından və ya təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

**UĞURLAR!**

# 9-cu sinif

04.02.2018

**Mətni oxuyun, 1-4-cü tapşırıqları yerinə yetirin.**

*1. Sən demə, xanım, o gecə Qalın Oğuzun dayağı, Bayandır xanın kürəkəni, Ulaş oğlu Salur Qazan yuxuda qarma-qarışıq əhvalat gördü, ▲hövlnak ayağa durdu. 2. Dedi: "Qardaşım Qaragünə, bilirsənmi yuxuda nə göründü? 3.Qara-qayğılı əhvalatlar gördüm. 4.Gördüm ki, yumruğumda bir şahin çırpınıb quşumu əlimdən alır. 5. Hündür evimin üzərinə göydən ildırım çaxdığını gördüm.*

**1. Qarşısında ▲ işarəsi qoyulmuş sözü mətndə hansı sözlə əvəz etsək cümlədəki məna dəyişməz?**

A) cəld B) qorxaraq
C) təəccüblə D) heyrətlə
E) sevincək

**2. Mətndə sintaktik yolla yaranmış sifətlər hansı cümlələrdədir?**

A) 1, 5 B) 1, 2 C) 3, 4
D) 3, 5 E) 1, 3

**3. Müraciət bildirən söz hansı cümlələrdə işlənmişdir?**

A) 1, 2, 4
B) 1, 4
C) 1, 2
D) 4, 5
E) 3, 4

**4. Mətndə işlənmiş fikrə münasibət bildirən söz hansı bənddədir?**

A) Gördüm ki
B) Xanım
C) Qardaşım Qaragünə
D) Sən demə
E) Bayandır xanın kürəkəni

**5. Hansı bənddə fərqləndirilmiş sözlər frazeoloji omonim deyil?**

A) **Ağzına** bir az **su alıb** dilini yaşladı.
Qoy desin, a Mürsəl kişi, niyə **ağzına su alıb** dillənmirsən? (M.Hüseyn)

B) Sarıl Günəş rəngli bir al bayrağa;
Səsinlə elləri **qaldır ayağa** (S.Vurğun)
İsti su vannaları bir həftədən sonra xəstəni **ayağa qaldırdı**.

C) Sən dinmədikcə lap **başa çıxırsan**.
Bu gün elmi işimi tamamlayıb **başa çıxdım**.

D) Lakin sevinmədi bizim babalar,
Qəfəsdə **can verdi** ellər, obalar. (S.Vurğun)
Əridir qüdrəti, dağı əridir,
Səhraya **can verir**, çölə yaraşıq.

E) Onun hərəkətindən mən **cana gəldim**.
Bir neçə gündür ki, özümü yaxşı hiss edirəm, **cana gəlirəm**.

**6. Məntiqi ardıcıllığı tamamlayın:**

*Atın yüyənini tutmaq, xətrini əziz tutmaq, ......................., işçi tutmaq.*

A) Qabın qulpundan tutmaq
B) Üzünü yana tutmaq
C) Həyatda yer tutmaq
D) Dostdan xəbər tutmaq
E) Hal-əhval tutmaq

**7. Fonetik cəhətdən eyni hadisənin baş verdiyi məntiqi uyğunluğu göstərin.**

İki iki(i)nci ikinci

A) Məşhur B) Lahiyə C) Görsət
D) Səkkizinci E) Ələsgər

**8. *İstiqbal* – sözündə dördüncü samiti sonor samitlərdən biri ilə əvəz etsək yaranmış söz haqqında fikirlərdən hansını düzgün hesab etmək olar?**
A) Yaranmış hər iki söz yaxın mənalı sözdür.
B) Ərəb mənşəli söz olub mənası müstəqillik, azadlıq deməkdir.
C) Müqəddərat sözünün sinonimidir.
D) “Keçmiş” sözü ilə antonimdir.
E) Hər iki söz dilimizdə artıq arxaikləşmişdir.

**9. Aşağıdakı sxemə uyğun variantı göstərin.**

| ______________ | ----------------- | |
|---|---|---|
| III növ təyini söz birləşməsi ilə ifadə olunmuş mübtəda | İsimlə ifadə olunmuş vasitəli tamamlıq | Suala cavab verməyən sözlə ifadə olunmuş ismi xəbər |

A) Dədə malını fərsiz oğul nə bilə?
B) Atalar sözlərində hikmət var.
C) Mənim sizdən bir xahişim var.
D) Məktəbin nizam-intizamı qayda-qanun ilə mümkündür
E) Onun ingiliscə tərcüməsi məndə yoxdur.

**10**. *Dünyada nə qədər gözəl sənət var,*
*İdrak sayəsində yaranmış onlar.*
*Nə böyük* ***matahdır****, demə, təfəkkür,*
*Hələ zərrəsinin hökmü böyükdür.*

**Nümunə haqqında verilənlərdən biri səhvdir.**
A) Adlıq halda dörd olan isim var.
B) Fərqləndirilmiş sözün mənası *əzəmətli, möhtəşəm* deməkdir.
C) Nümunədə güman, şübhə bildirən modal söz işlənmişdir.
D) Əvəzliyin iki məna növünə aid nümunə var.
E) Nümunədə inversiya hadisəsi müşahidə olunur.

**11**. *Şeirlər sadəcə qəm, məhrumiyyət, bədbəxtlikdən bəhs etməməlidir, ... ?*
**Bu cümlə aşağıdakılardan hansı ilə davam etdirilə bilməz?**
A) həyatda xeyir və şər qardaş deyilmi
B) musiqimizdə muğamla oynaq havalar yanaşı gəlmirmi
C) oxucunun şeirdən aldığı zövqü məhdudlaşdırmaq lazımdırmı
D) insan ömründə tragik məqamlar da olmurmu
E) insanları ümidsizliyə salmağın mənası varmı

**12. Biri *"n"* bitişdirici samitinin işləndiyi məqamdır:**
A) *su* sözünün yiyəlik hal forması
B) sonu saitlə bitən alınma sözlərin çıxışlıq hal forması
C) III şəxs mənsubiyyət şəkilçili sözlərin yerlik hal forması
D) *baba* sözünün yönlük hal forması
E) II şəxs (tək) mənsubiyyət şəkilçili sözlərin təsirlik hal forması

**13.** "*Xülasə, qardaşımla mən bircə dəqiqə səhərəcən yatmayıb atamı gözlədik."* **– cümləsində neçə fərqli nitq hissəsinə aid söz var?**
A) 6 B) 7 C) 8 D) 9 E) 11

**14. “*Atlas*” və “*atlaz*” – biri *xəritə*, digəri *parça növü* kimi leksik mənalar ifadə edən bu sözlərin fonetik təhlilindəki fərq nədədir?**
A) saitlərin növündə
B) samitlərin növündə
C) vurğuda
D) səslərin sayında
E) hecaların sayında

**15. Verilmiş nümunənin sintaktik təhlili ilə bağlı verilənlərdən biri səhvdir.**

*Almanı, heyvanı, narı, turuncu*
*Bu dördünü dərən əllər sevinsin.*

A) Xəbər feilin əmr şəklindədir.
B) Təyin feili sifət tərkibi ilə ifadə olunub.
C) Hər iki baş üzv sadədir.
D) Həmcins tamamlıqlı cümlədir.
E) Təyin ilə mübtəda arasında yanaşma əlaqəsi var.

**16. M.İbrahimovun "Azad" hekayəsində qəhrəmanın hansı xüsusiyyətləri fərdiləşdirilmişdir?**

A) Vətənpərvərliyi, döyüşkənliyi, azad fikirliliyi
B) Təmkinli, azdanışan, sədaqətli olması
C) Kasıb olması, yaxşı oxuması, dostları tərəfindən sevilməsi
D) Xəstə olması, səxavətliliyi, ünsiyyətcilliyi
E) Prinsipiallığı, əməksevərliliyi, qayğıkeşliliyi

**17.**




A) "Ana"
B) "Bakı müharibəsi"
C) "Gəncəli dostlarıma"
D) "Azərbaycan, Azərbaycan"
E) "Azərbaycan bayrağına"

**18.**




1. Sıxıntılı həyat şəraitindən bəhs edilməsi
2. Baş qəhrəmanlarının qadın olması
3. Müharibə mövzusunda olması
4. Məhəbbət mövzusunda olması
5. Hadisələrin Türkiyədə cərəyan etməsi

A) 1, 2, 4 B) 2, 4 C) 1, 5
D) 1, 2 E) 4, 5

**19. II Dünya müharibəsi dövrünün şairləridir:**

A) Ə.Vəliyev, S.Rəhimov, S.Hüseyn
B) M.Hüseyn, S. Vurğun, S. Hüseyn
C) R.Rza, S. Vurğun, S.Rüstəm
D) R.Rza, M.Müşfiq, S.Vurğun
E) M.Rahim, M.Cəlal, A.Şaiq

**20. M.Şəhriyarın "Heydərbabaya salam" poemasında namərdlərə qarşı çıxan:**

*................ seyidlərin tacıydı,*
*Şahlar şikar etməsi qıyqacıydı,*
*Mərdə şirin, namərdə çox acıydı,*
*Məzlumların haqqı üstə əsərdi,*
*Zalimləri qılınc təkin kəsərdi.*

A) Mirmustafa
B) Amir Qafar
C) Rəxşəndə
D) Molla İbrahim
E) Heydərbaba

**21. M.İbrahimovun "Gələcək gün" romanında Firidunun və ailəsinin Tehrana köçməsinin əsas səbəbi idi:**

A) Tehranda təhsil almaq
B) Anasının xəstələnməsi
C) Ərbabın oğlu ilə dalaşması
D) Atasının ölməsi
E) Atasının işsiz qalması

**22. Verilmiş parçalardan hansılar Ernest Heminqueyin "Qoca və dəniz" əsərindəndir?**

1. O çox sadə, başıaşağı, təmizürəkli, həm də təvazökar adam idi. Hiylənin kələyin nə olduğunu bilməzdi, bu da onun hörmətini daha da artırırdı.
2. Qoca Tinti üzünü camaata tutaraq yavaş və hüznlü bir səslə danışmağa başladı:
- O dedi ki, biz namuslu adamlarıq, o tapşırdı ki, biz həmişə öz namusumuzu qoruyaq. O bizə xəbərdarlıq etdi ki, hələ qabaqda çətin sınaqlar çoxdur.
3. Bu sözləri elə yanıqlı bir səslə, elə miskin bir tərzdə dedi ki, ürəyimdə hiss etdiyim ağrıdan bütün vücudum titrədi. Gözlərim dərhal gözlərinə dikildi.
4. İki saat idi, günəş doğmuşdu. İndi qoca gündoğana baxanda günəşin tellərini güzgüləndirən dəniz gözlərini o qədər də qamaşdırmırdı. Göz işləyən yerdə yalnız üç qayıq vardı, onlar da zorla seçilirdi, elə bil sahildən qopmamışdı.
5. Döyüş sürəti və hərarətində özümdən xəbərsiz kimi yanırdım. Qan gözümü örtəndə qılçalarım hərəkətdən qalanda kökü vurulmuş bir ağac kimi yerə sərildim. Sanki bir səs mənə deyirdi:
"Bəsdir! Burax!" Lakin mən bunu eşitmək istəmirəm.

A) 1, 2 B) 2, 3 C) 2, 4 D) 1, 4 E) 4, 5

**23.** *"Məndə qəribə bir arzu baş qaldırdı: iki ömür istəyirəm. İstəyirəm ki, ilk ömrüm – təcrübə dərsi olsun: bu mürəkkəb dünyanı, qapalı adamları öyrənməyə sərf olunsun. İmtahandan çıxa bilsəm, mənə ikinci həqiqi ömür verilsin."* **– verilmiş parça ilə bağlı uyğun bəndləri seçin:**

| | |
|---|---|
| 1. "Vətən Yaraları" | a. Mirzə İbrahimov |
| 2. "Zeybək qızı" | b. Yusif Vəzir |
| 3. "Gələcək gün" | c. Mir Cəlal |
| 4. "İki həyat arasında" | d. Seyid Hüseyn |
| 5. "Nişan üzüyü" | e. Mehdi Hüseyn |

I hekayə
II roman
III povest
IV faciə
V dram

A) 1, c, I
B) 2, b, II
C) 3, a, IV
D) 4, d, III
E) 5, e, V

**24. Mirzə İbrahimovun "Gələcək gün" əsərindən verilmiş hadisələrin ardıcıllığını göstərin.**

1. Firidun və ailəsinin Tehrana köçməsi
2. Firidunun ərbabın oğlu ilə dalaşması
3. Anasının ölümü
4. Atasının müəllimin yanında iş tapması
5. Firidunun Musa dayısıgilə gəlişi

A) 2,3,4,1,5
B) 1,3,2,4,5
C) 1,5,2,4,3
D) 2,1,3,4,5
E) 4,3,2,1,5

**25.** *Qoymaram yadları girsin qoynuna*
*İzin ver qolumu salım boynuna*
*Sənin bayramına, sənin toyuna*
*Dili bir, qanı bir qardaşın gəlib*
*Dərdinə aşina sirdaşın gəlib.*

**Şeir parçasında altından xətt çəkilmiş misrada işlənən bədii ifadə vasitəsi haqqında aşağıdakılardan hansı səhvdir?**

A) Sənətkar söz sırasını məqsədli şəkildə pozaraq yaradır.
B) Əsərdə fikrin təsir gücünü artırmaq üçün sözlərin qrammatik ardıcıllığının qəsdən pozulmasıdır.
C) Bu ifadə vasitəsini sənətkar xüsusən nəzm əsərində istifadə edir.
D) Yunan sözüdür, mənası *addəyişmə* deməkdir.
E) Bu ifadə vasitəsi dilimizdə cümlə üzvlərinin sırasını pozmaqla qrammatik normanı da pozmuş olur.